**Süleymanova Fatma Qoşqay qızı**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
hemid6864@gmail.com

# TAHİR SALAHOV YARADICILIĞINDA SƏNAYE MƏNZƏRƏSİ

***Açar sözlər:*** *rəssam, neft, əsər, rəngkarlıq, mənzərə, sənaye*
***Key words:*** *artist, oil, painting, work, landscape, industry*
***Ключевые слова:*** *Художник, нефть, произведение, живопись, пейзаж, индустрия*

Tahir Salahov yaradıcılığında Xəzər dənizində çalışan neftçilərin obrazları, Neft daşları xüsusi yer tuturdu. Rəssamın sərt üslubun gözəl nümunələrindən sayılan "Neft Daşlarında" (1955), "Neft Daşları" (1956), "Növbədən qayıdarkən" (1957), "Səhər eşelonu" (1958), "Çənlər" (1959), "Çənlər parkı" (1959), "Təmirçilər" (1960) əsərlərini göstərmək olar. Yeni üslubda işlənmiş bu tabloları gənc rəssamı yalnız Azərbaycanda deyil, keçmiş SSRİ məkanının təsviri sənət aləmində böyük şöhrət gətirdi. Rəssam hər zaman ön planda sənaye mənzərəsini verir. Ancaq bununla belə rəssam obrazlı təfəkkürə əsaslanaraq özünün ən gözəl əsərlərini bədii ümumiləşdirmə yolu ilə canlandırır. Obrazlı təfəkkürə əsaslanan rəssamın əsərləri sırasına "Neft Daşlarında" əsərinin adını çəkə bilərik. Bu əsəri da həm rəng həlli, həm də kompozisiya xüsusiyyətlərinə görə xeyli maraq doğurur. Sovet dövrünün bu mövzuda yaradılmış əsərlərində əsas xüsusiyyət parlaq rəng, kulminasiyanın pafosu idi. T.Salahovu öz müasirlərindən fərqləndirən əsas cəhət və ustalığı o idi ki, rəssam qürub çağı Xəzəri və səmanı, gəmiləri və insan siluetlərini böyük məharətlə təsvir edirdi. Rəssam əsərlərində əsasən tünd və boğuq rənglərdən isitifadə etsə də bu cür hal izləyicidə mənfi hiss oyatmır. Əsərlərindəki müsbət nikbinlik hissini gəmilərin və uzaqda görünən tikililərin pəncərələrindəki işıqlar yaradır. Batan günəşin halədə parıldayan işığın tünd buludların arasından keçərək bir çox yerləri eləcədə dənizi və estakadanı işıqlandırır. Bu işıq dəstək və ümid xüsusiyyəti daşıyaraq işə gedən eləcə də işdən geri dönən zəhmətkeş və əzmkar fəhlələrin yolunu işıqlandırır. T.Salahovun bu əsəri kompozisiyasına görə xeyli maraqlıdır. Əsərin sol küncündə təsviri tam verilməyən obyekt əsəri izləyən tamaşaçıda sanki tablonun arxasına baxmaq hissi yaradır. Bu hiss müəllifin əsərinin emossional təsir gücünü artırır və bu da rəssamın kompozisiya qurmaq məharətini göstərmiş olur. Tabloya baxış keçirərkən əsərin kompozisiyasında biz rəssamın yaradıcılığına xas olan bir xüsusiyyəti-qırmızı ləkəni görə bilərik. Bu xüsusiyyətə rəssamın demək olar ki, tabloların hamısında rast gələ bilərik. Əsərə ilk baxış zamanı bu xüsusiyyət əsərin nə ideya-məmun, nə də ki, heç bir xüsusi rolu olmasa da bu qırmızı ləkəni biz gənc rəssam yaradıcılığının keyfiyyət nişanı adlandıra bilərik. "Neft Daşlarında" tablosunda əmək prosesi eləcədə əməç insan surətləri deyil, ikinci plandadır. Bu əsərdə təsvir olunmuş bütün hər nə varsa sənaye mənzərəsinin vahid ümumiləşdirilmiş obrazını yaradır.

Rəssamın digər bir əsəri olan "Neft Daşları" tablosunda Xəzər dənizində inşa edilmiş yeni sənaye şəhərinin bir görünüşü verilmişdir. Müxtəlif növlü tikililərin damları əsərin ön planında, dənizdə sanki ilan kimi qıvrılan dəmir estakadaların görünüşü isə əsərin arxa planında təsvir edilmişdir. "Neft Daşları" əsəri rəssamın digər əsəri olan "Neft Daşlarında" əsəri ilə mövzu cəhətdən eyni olsa da ideya və rəng baxımından bir-birindən çox fərqlənir. Əsərin aşağı sol küncündə obyektlər çox, yüklənmiş olsa da, sağ tərəfdə verilmiş obyektlər və bu tərəfdə açıq rəng seçimi əsərin fonunun mavi rəng həlli bu yüklənməni, ağırlığı hiss etməyə imkan vermir. Əsərdə bu ağırlığı və yüklənməni azaldan bir xüsusiyyət də həmçinin təsvir edilmiş obyektlərin şaquli formada verilməsidir.

Əzmkar neftçilərin şücaətli iş günləri rəssamın ilk böyük tablosu, diplom işi olan "Növbədən qayıdarkən" əsəri üçün zəngin material vermişdir. Tahir Salahovun geniş yayılmış bu əsərini rəssamın böyük sənətkarlığının başlanğıcı adlandırmaq olar. Onu da qeyd etmək lazımdır ki, rəssamın müəllifi olduğu bu əsəri həm ideya baxımından həm də süjeti təsviri sənətdə geniş yayılmış mövzulardan hesab olunur. Mövzuya yanaşma tərzi və kompozisiya xüsusiyyətləri əsərin bədii keyfiyyətini, dəyərini müəyyənləşdirən əsas amil kimi dəyərləndirilir. Rəssamın bu tablosunda növbədən geri dönən əzmkar fəhlələrin küləyə qarşı hərəkət edərək getməsi müxtəlif şəkildə izah edilirdi. Bəzi sənətşünastlar bu halı-fəhlələrin küləyə qarşı getməsini təbiət qüvvələrinə sinə gərən, sabaha inam dolu insanların qəhrəmanlığı kimi şərh edirlər. Lakin o dövrdə rəssamı ittiham edib ona "impressionist" damğasını vuranlar da var idi. Rəssamı ittiham edib, növbədən qayıdan fəhlələri cəmiyyətə qarşı çıxan insanlar kimi göstərmək istəsələr də, bu cür ideoloji fikirlər sənətşünastlar, cəmiyyət tərəfindən əsassız hesab olunaraq bu əsəri sovet təsviri sənətində öz yerini

layiqincə tutdu. T.Salahovun bu tablosu gənc neftçi nəslini "müzəffər qərinə" kimi qeyd etmişdi ki, bu da sosializm realizminin pafosuna cavab verirdi. Elə bu səbəbdən də əsərini o dövr üçün yeni cərəyan hesab olunan "impressionizm"ə aid etməyə əsas azdır.

Rəssamın "Növbədən qayıdarkən"adlı tablosu çox maraqlı kompozisiya quruluşuna malikdir. Əsər öz dinamikası və plastikası ilə tamaşaçını özünə cəlb edir. Bu tablosunda Tahir Salahov ilk dəfə olaraq özünün rəng görümünü göstərmişdir. "Növbədən qayıdarkən" adlı əsərinin koloritində ağ, boz, yaşıla çalan qəhvəyi rənglərin müxtəlif tonlarına üstünlük verir.

Üfüqi istiqamətdə işlənilmiş bu tabloya dinamikanı hərəkətdə təsvir olunan qağayılar verir. Əsərin rəng həlli də olduqca maraqlıdır. Rəssam əsərində boz rəngin çalarlarından istifadə etmişdir. "Növbədən qayıdarkən" adlı tablosunda rəssam təbiəti sərt təsvir etməsinə baxmıyaraq əsər nikbin əhval-ruhiyyə yaradır.

Nəzər nöqtəsi aşağıda olan tabloda mavi səma altında yorucu iş günündən sonra evə geri dönən zəhmətkeş fəhlə obrazlarının iri siluetləri daha aydın şəkildə görünür. Bu cür aydın ifadəni biz estakadaların sütunları da, maşınlar da, küləyin sürətlə qovduğu buludlarda da görə bilərik. Tablonun monumentallığını gücləndirən əsas xüsusiyyət açıq boz rəngin təmkinliyidir.

Demək olar ki, rəssam yaradıcılığının lap əvvəlində neftçiləri, quraşdırıcılar hədlərini açan monoramlıq surətləri yaratmaqla deyil, həmçinin çox əhəmiyyətli olan dəyərləri-əzmkar fəhlələrin daxili dünyasının zənginliyini və eləcə də zəhmətin gücünü kətana köçürür.

Rəngkarın 1958-ci ildə çəkdiyi "Səhər eşalonu" adlı əsərində Bakının intensiv həyatı təsvir olunur. Tablonun adında günün vaxtı - "Səhər" verilməsəydi belə, əsərin koloritindən, təmiz havanın parıltısından və əhvalın müsbət yüksəliş enerjisindən yeni başlanan günün dinamikasını hiss edə bilərik. T.Salahovun bu əsəri müasir şəhərin döyünən ritmini qeyri-adi qabiliyyətə malik kompozisiya ustalığı ilə işlənmişdir. Yol boyunca yuxarıya doğru sürətlə irəliləyən maşınlar, körpünün üzərində neft çənlərini daşıyan ağır eşelon gedir. Əsər sırf sənaye motivində işlənmişdir. Bu əsər qeyri-adi emosionallığı ilə tamaşaçı diqqətini özünə çəkir. Minimanilizim və panoramlıq əsərin əsas xüsusiyyətləri kimi qeyd oluna bilər. Minimalizim və panoramlıq məhz elə əsərin monumentalizmini gücləndirir. Tabloda həmçinin işlənmiş və sənaye mənzərəsinin təsir gücünü artıran maşın və qatarların tüstüsünü göstərə bilərik.

Rəssamın 1960-cı ildə çəkdiyi "Təmirçilər" əsərində neftçilərin, zəhmət adamlarının yenilikçi bədii həllinin axtarışları verilmişdir. Rəssamın bu əsəri əmək mövzusunda işlədiyi ən gözəl əsərlərindən hesab olunur. Xəzər neftçilərinin fədakarlığından xəbər verən epik tablodur. Tablo sadə və romantik tərzdə işlənmişdir. "Təmirçilər" əsərində işlənmiş obrazlar digər sənaye mövzulu əsərlərindən fərqlənir. Əsərdə təsvir olunmuş qolu güclü və qamətli adamların üzündəki yorğunluğu rəssam seçmiş olduğu tünd yaxılar vasitəsilə daha qabarıq şəkildə göstərə bilmişdir. Müəllif istifadə etdiyi forma, həcm və rəng vasitəsi ilə dövrünün real sərt üslubunu peşəkarlıqla canlandırmışdır. Zamanın simvolu olan təmirçi surətləri dəzgah rəngkarlığında yaradılmış bu əsəri monumental rəngkarlığa yaxınlaşdırır. Bu cür yaxınlaşma T.Salahov yaradıcılığı ilə A.Deynea sənəti arasında oxşarlıq yaradır. Bu tablosunda qayıqla iş yerinə gedən təmirçilər müxtəlif psixiloji ovqatlarda görülürlər. "Təmirçilər" adlı tablosunun ümumi ahəngi tutqun rəngdə işlənmişdir. Əsərin sağ küncündə təsvir olunmuş fəhlə obrazı gödəkçəsinə bürünüb küləkdən qorunur, soldakı qaşqabaqlı baxışlarını sanki tamaşaçıya zilləyib. Bu tablo patetikadan tamamilə uzaqdır. Əsərə baxış zamanı elə hiss oluna bilər ki, ətraf mühitə bu qədər "qara qabaq" münasibət bəsləməyə etiyac yoxdur, lakin bu cür yaşam, iş-güc təmirçilərə heç də sevinc gətirmir, qayıqla keçdikləri yol da xoş gəzintiyə bənzəmir. Tutqun rəngdə işlənmiş əsərində fəhlələrin nigaran, dalğın, qayğılı əhvalı göstərilmişdir. "Təmirçilər" əsərində açıq şəkildə fəhlə əməyi quruculuq zövqü, fərəhi yox, ağır zərurəti göstərilmişdir. Yaxınlaşan yer üzərində ağaran üfüqlər ümid müjdəsi, fəhlələrin əhvalını açacaq bir gözlənti yox, sərt reallıqdır. Rəssamın bu tablosuna görə ona 1968-ci ildə SSRİ Dövlət mükafatı verilmişdir.

## Ədəbiyyat:

1. Axundova N. Azərbaycan rəssamlarının yaradıcılığında sənaye mənzərəsi janrı. S.ü.f.d. elmi dərəcəsi almaq təqdim etdiyi dissertasiya. Bakı, 2014.
2. Rəhmanzadə F. Böyük yaşantının naxışları. (Xalq rəssamı Tahir Salahovun həyatına bir baxış) Bakı 2008
3. Nəcəfov M. Tahir Salahov. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı 1964
4. Nəcəfov M. Tahir Salahov. Bakı 1968

**Industrial landscape in Tahir Salahov's creative work**
**Summary**

Even though there are a lot of artists who define the industrial landscape in Azerbaijan, they have not always been attractive, contemporary and memorable artists with their style, worldview and subject width. In Tahir Salahov's paintings, the industry has reached its highest peak. The painter also demonstrated the beauty of working days that demanded hard and laborious work. The main line and the inner state of its industry-leading charts are simple, sophisticated.

**Индустриальный пейзаж в Тахира Салахова**
**Резюме**

Несмотря на то, что в Азербайджане много художников, которые определяют индустриальный пейзаж, среди них мало художников, со своим привлекательным, современным и запоминающимся стилем, мировоззрением и широтой темы. В живописи Таира Салахова тема индустрии достигла своего пика. Художник также продемонстрировал красоту рабочих дней, которые требовали тяжелой и кропотливой работы. Основной характер его индустриального пейзажа простая, безпафосная скромность.

**Rəyçi: sənətşünaslıq üzrə fəlsəfə doktoru A.Xəlilov**